**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI**

**AZS 122**

İkinci nəşr
27.12.2023

1 nömrəli dəyişiklik

__.__. 2024

# Yerüstü nəqliyyat vasitələri üçün təhlükəsizlik şüşəsi
# Ümumi texniki şərtlər

# Safety glazing for vehicles
# General specifications

AZƏRBAYCAN STANDARTLAŞDIRMA İNSTİTUTU

İstinad nömrəsi
AZS 122:2023

©AZSTAND 2023

AZS 122:2023 “Yerüstü nəqliyyat vasitələri üçün təhlükəsizlik şüşəsi. Ümumi texniki şərtlər” dövlət standartına

1 NÖMRƏLİ DƏYİŞİKLİK

Tətbiq edilmə tarixi: “__” _______2024-cü il

**1.** Bu standartın “5 Texniki tələblər” bölməsində:

**1.1.** 5.1.2.5-ci bəndi aşağıdakı redaksiyada verilsin:

Sürücü üçün görünməni təmin edən küləyə qarşı olan ön şüşənin və sürücünün yanında görünməsini təmin edən digər şüşələr üçün işiqburaxma qabiliyyəti ən azı 70% olmalıdır.

İki yan güzgünün quraşdırıldığı zaman sürücüdən arxa tərəfdə yerləşən yan şüşələrin, yük yerinin yan şüşələrin və arxa şüşələrin işıqburaxma qabiliyyəti normallaşdırılmır. [1]

İşıqburaxma qabiliyyəti bu standartın tələblərinə uyğun olan, sənaye üsulu ilə hazırlanan rəngli şüşələrin (güzgü-şüşələrdən başqa) tətbiqinə icazə verilir. [2]

Sərnişindaşımada istifadə olunan avtobus və mikroavtobusların salon şüşələrində işıqburaxma qabiliyyəti 60 %-dən aşağı olmamalıdır, şəffaf tündləşdirilmiş şüşələrin tətbiqinə yol verilir. [3]

$M_1$ kateqoriyalı nəqliyyat vasitələri üçün B zonasının (Şəkil 5.1) üstündəki sahədə digər şüşələrin və küləyə qarşı olan ön şüşələrin günlük zolaqlarının işıqburaxma qabiliyyəti normallaşdırılmır. İstehsalçı zavod tərəfindən quraşdırılmış küləyə qarşı olan ön şüşənin yuxarı hissəsinin günlüklərinin hündürlük səviyyəsi M1, M2 və N1 kateqoriyalı avtomobillər üçün 150 mm-dən çox olmamalıdır. $M_3$, $N_2$ və $N_3$ kateqoriyalı avtomobillər üçün – küləyə qarşı olan ön şüşənin yuxarı kənarı ilə şüşəyuyanın yuxarı sərhəd zonası arasındakı minimal məsafədən hündürlüyü səviyyəsi NV istehsalçısının cizgilərində başqa hal nəzərdə tutulmayıbsa çox olmamalıdır.

**1.2.** 5.1.2.6 və 5.1.2.7-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

*Qeyd – B sınaq sahəsi 43 saylı Qaydanın 21-ci Əlavəsinə (2.4 bəndi) uyğun olaraq azaldılmışdır. [4]*

**1.3.** 5.1.3.4 bəndi aşağıdakı redaksiyada verilsin:

*Qeyd – [4]-ə uyğun olaraq $V_1$, $V_2$, 0 nöqtələrinin yeri təyin edilir.*

**2.** Bu standartın Əlavə B bölməsində birinci cümlə aşağıdakı redaksiyada verilsin:

 ©AZSTAND – Bütün hüquqlar qorunur

Şüşələrin cizgilərində aşağıdakıları göstərmək tövsiyə olunur: [5]

**3.** Bu standartın "Biblioqrafiya" bölməsi aşağıdakı redaksiyada verilsin:

## BİBLİOQRAFİYA

[1] 22 fevral 2023-cü il tarixli 18 saylı Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Nəqliyyat vasitələrinin şüşələrinə örtüklərin çəkilməsi Qaydası"
[2] "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının 03 iyul 1998-ci tarixli 517-IQ saylı Qanunu;
[3] 04 mart fevral 2019-cu il tarixli 73 saylı Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Bakı şəhərində sərnişindaşımada istifadə olunan avtobuslara və taksi minik avtomobillərinə, onların sürücülərinə, sərnişindaşıma fəaliyyətini həyata keçirən daşıyıcılara, nəqliyyat mübadilə mərkəzlərinə, avtobuslar üçün dayanacaq məntəqələrinə və taksi minik avtomobilləri üçün duracaq yerlərinə dair Tələblər"
[4] BMT AİK–nin 43 saylı Qaydası "Uniform provisions concerning the approval of safety glazing materials and their installation on vehicles"
[5] ГОСТ 32565-2013 Стекло безопасное для наземного транспорта. Общие технические условия

©AZSTAND – Bütün hüquqlar qorunur 